# General Qulam Yəhya Daneşani - 110 (1906-2016)

## Üçüncü mühacirət və ya canlı şahidlərin təəssüratları

*Bizdən əvvəl 3 dəfə mühacirətdə partiyalar olub. Lakin onlardan heç ad qalmayıbdır. Ayə onların vətən sədaqəti bizdən az idi? İmanları az idi? Buna səbəb prinsipial olmamağı olmuşdur. İndi gəlin onların səhvlərini təkrar etməyək, təşkilatımızı möhkəmləndirək*

*Qulam Yəhya Daneşaninin nitqlərindən*

**PRİNSİPİALLIQ OLAN YERDƏ...**

- Firqəmiz 70 ildir mühacirətdədir. Bəlkə də eyni taleyi yaşayan digər ölkələrin siyasi təşkilatları ilə nisbətdə müqayisəyə gəlməzdir. Sentyabrın 3-də ADF-nin yaranma gününü qeyd edəndə keçilmiş yola nəzər saldıq və bir daha qənaətə gəldik ki, onun üzərində dayandığı təməl möhkəm olduğundan heç bir kənar təsir sarsıda bilməz.

Doğrudan da onilliklər ərzində biz neçə - neçə vətənpərvər, mütərəqqi qurumun tarixin arxivinə qovuşduğunun şahidi olmuşuq. Bu nədən baş verdi sualına müxtəlif aspektlərdən alınan cavablarda "prinsipiallığın yoxluğu" da diqqət çəkib. Həqiqətdə də belə taleyi yaşayan təşkilatda ilk baxışda hər şey qaydasında olduğu təsirini bağışlayıb. Lakin diqqətlə təhlil edəndə faciəvi yaşantını doğuran məntiqi səbəblər aşkarlanıb. Yəni çıxarılan qərarlar icrasız qalıb, əyintilərə, nöqsanlara göz yumulub, kadr seçimində və sair məsələlərdə tələblər unudulub. Nəticədə yüzlərin, minlərin inamı tədricən əriyib, partiya halsız, hərəkətsiz vəziyyətə düşdüyündən fəaliyyətini başa vurmaq məcburiyyətində qalıb.



Təbiidir ki, prinsipiallıq nümunəsi ən əvvəl təşkilat rəhbərinin şəxsində digərləri üçün örnək olur. Mən firqəmizin Mərkəzi Komitəsinin sayca 5-ci sədriyəm. Söz yox ki, əzəli və əbədi liderimiz firqəmizin yaradıcısı, onu "21 Azər"in qələbəsinə qovuşduran Seyid Cəfər Pişəveridir. Sadıq Badiqan da 4 il ərzində az işlər görməyib. Lakin hər birimiz etiraf etməliyik ki, mühacirət illərində firqəmizin təşkilati cəhətdən formalaşmasında, hətta varlığının təhlükəli ambisiyalardan qorunmasında, dünənki mühacirlərin yeni cəmiyyətə adaptasiyasında, özünü təsdiqləməsində, möhtəşəm uğurlar əldə etməsində Q.Y. Daneşani faktorunun rolu misilsizdir.

O heç vaxt ADF liderliyinə can atmayıb. Söz düşəndə başqalarının namizədliyini irəli sürüb. Milli ordu generalının təşkilata rəhbərliyinin zərurəti dövrün, zamanın və bir də məsləkdaşlarının xahişlərindən, tələblərindən qaynaqlanıb. Xalqının və partiyasının sədaqətli oğlu isə ümumi prinsiplər naminə çiynini ağır, şərəfli mənəvi yükün altına verib. Son nəfəsinədək ona inananların etimadını doğruldub. Məhz prinsipiallığı, inandırma qabiliyyəti sayəsində təşkilatlara daha gənc, enerjili, eyni zamanda qayğıkeş, məsuliyyətli şəxsin - Əmirəli Lahrudinin rəhbər seçilməsinin vacibliyinə onları inandıra bilib. Gördüklərimiz, şahidi olduqlarımız ağsaqqal sözünün qüdrətini sübuta yetirib. Biz Ə.Lahrudini də son mənzilə xoş xatirələrin, qürur hissinin müşahidə etdiyi üzüntü ilə yola saldıq.

Bəs generalın firqə və cəmiyyət rəhbərliyinə seçimi hansı zərurətdən irəli gəlirdi. Buna varmaq istəyən hər bir şəxsin Q.Y.Daneşaninin bioqrafiyasını, həyat və mübarizə yolunu öyrənməsini məsləhət görərdik. Əslində, o, S.C.Pişəvərinin yoxluğundan sonra bütün müsbət kriteriyalara cavab verən yeganə insan idi. Üç mühacirət həyatını yaşamaq bu ölkəyə pənah gətirən yoldaşlarından az-azının qismətinə düşmüşdü.

Qulam Yəhya neft Bakısına İrandan gəlmiş, burada sənətə yiyələnmiş, həmkarlar təşkilatında, sonralar Azərbaycanın partiya, sovet sistemində yüksək iş və mənəvi keyfiyyətləri ilə dərin hörmət qazanmışdı. 30-cu illərin repressiyaları başlayanda İrana qayıtmaq məcburiyyətində qalmışdı. Orada həbslər, ölüm pəncəsindən qurtulma, fədai dəstələrinin təşkilindəki, firqənin yaradılmasındakı, Milli Hökümətin bir illik fəaliyyətindəki önəmli xidmətləri, adamları duymaq, vaxtında kömək əlini uzatmaq həssaslığı və nəhayət şərəfli yolun bələdçisi olan prinsiplərə sədaqəti...

Mən rəhbərimizi dəfələrlə görmüşəm. Doğrusu zəhminin hər dəfə basdığını hiss etdiyimdən gərginliyi özü aradan götürüb. Yaşadığım, işlədiyim Şamaxıya, Qubaya, Şirvana gəlişləri hər dəfə sevinclə qarşılanıb. İnsanların qayğılarına həssas yanaşıb, məsələləri yerindəcə həll edib. Təşkilati məsələlərə gələndə nadir halda keçəcəyi olub.

Təşkilatımızın gənc kadrlarla möhkəmlənməsinə, nəsillərin estafetinə yüksək əhəmiyyət verib. Yadımdadır ki, məhz onun tövsiyəsi ilə 35 il əvvəl regional təşkilatlarımızda sədrliyə cavanların gətirilməsi prosesi başlanıldı. Ağdamdan Zari Əziz, Şamaxıdan Rəsul Rzai, Gəncədən Bəhlul Rəvani və digərləri etimadı layiqincə doğrultdular. Mənim Şirvan təşkilatından sonra ADF MK-ya rəhbər seçilməyimin kökündə də bu amil axtarılmalıdır.

***Valeh Quluzadə,***
*Azərbaycan Demokrat Firqəsi Mərkəzi Komitəsinin sədri*

# Aslanın dişisi, erkəyi olmaz..



**Azərbaycan qadınlarından alınmış bu məktubları ürək döyüntüsüz, dərin iftixar hissləri keçirmədən oxumaq mümkün olmurdu. Həqiqətən onda mən hiss etdim ki, atalar çox yaxşı deyiblər: "Aslanın dişisi, erkəyi olmaz".**

**Qulam Yəhya Daneşaninin nitqlərindən**

General Qulam Yəhyanın apardığı elə mötəbər tədbir olmazdı ki, qadınlardan, onlara qayğıdan, cəmiyyətdəki rolunun, aktivliyinin artırılmasından söhbət açılmasın. Çıxışlarında "Aslanın dişisi, erkəyi olmaz" məsəlini dilə gətirməkdən zövq alardı. Sonra isə deyərdi ki, aslan elə hər yerdə aslandır.

Bu sözlər həyati müşahidələrinə, gördüklərinə əsaslanırdı. Çünki ö özü yenilməzlik rəmzi, bir aslan idi. Oğluna da təsadüfən Aslan adını seçməmişdi. Talenin ona Sitarə xanım timsalında qətiyyətli, cəsarətli, xeyirxah, kişi qeyrətli xanımı həyat yoldaşı kimi bəxş etməsi ömür boyu qəddini şux saxlamasının, ən təhlükəli tapşırıqların icrasına arxayıncasına, təmkinini pozmadan yollanmasının başlıca şərtlərindən idi.

Diqqət yetirin, general Qulam Yəhya istər inqilab ərəfəsində, istərsə də Milli Hökumətin hakimiyyətdə olduğu bir ildə demək olar ki belindən düşməidi. Mühacirət illərində də rahat günləri çox deyildi. Dörd övladını böyüdən həyat yoldaşı hansısa qayğılarından bəhs etməklə onun diqqətinin şaxələnməsinə qətiyyən yol verməyib.

Qulam Yəhya gələcək həyat yoldaşının atası ilə dost olmuşdu. Həbsxanada yatmışdılar, çətin günlərdə bir-birilərini tanımışdılar. Sitarə xanım ömür-gün yoldaşının 100 illik yubileyi ilə əlaqədar Azərbaycan televiziyasına verdiyi müsahibədə gələcək qaynanasının onu görüb bəyəndiyini söyləsə də heç şübhəsiz Q.Yəhyanın da görmədiyi, sevmədiyi insanla ailə qurmaq ehtimalı məntiqi sayıla bilməzdi.

Sitarə xanımı sıradan adi qadın saymaq sadəlövhlük olardı. Biz onu analar-anası adlandırırdıq. Nüfuzu çoxlarında həsəd doğururdu. Plenumların birində firqənin Mərkəzi Komitəsi üzvlüyünə onun da namizədliyi irəli sürülmüşdü. Yoldaş Qulam bir ailədən iki nəfərin namizədliyinə etiraz etdi. Plenum iştirakçıları birmənalı şəkildə bildirdilər ki, özün barədə özün qərar qəbul edə bilərsən. Biz seçimimizdə qətiyik.



Sitarə xanım o tayda erkən yaşlarından fədailərə qoşulan İrəc İbrahimİ, mənim kimi qadınlara xüsusi hörmət bəsləyirdi. Şahsevən qızı, şəhid Səkinənin adını tez-tez çəkirdi. Mühacirət illərində Suqra Azərini, Humay Yərafranı, Möminat Puhəni, Müəzzəmə Nəsirini, şairə qadınlarımızı, istehsalat qabaqcıllarımızı başqalarına nümunə göstərirdi.

O haqq dünyasındadır, adı isə qəlblərdə.

***Adilə Çernikbülənd,***
*Azərbaycan Dövlət Tibb Universitetinin müəllimi, İranlı Mühacirlər Cəmiyyəti İdarə Heyətinin üzvü*

# Zəhməti, zəhmətkeşi dəyərləndirən insan

**Bir təklif də irəli sürürəm. Gəlin yoldaşları hansı ki, ictimai işlərdə və sairədə fərqlənirlər, onları qiymətləndirək. Bunun üçün yaxşı olar ki, onlardan 50 yaşından başlayaraq 60-70 və sair yaşına çatmış yoldaşların yubileylərini müxtəlif vasitələrlə qeyd edək.**

**Qulam Yəhya Daneşaninin nitqlərindən**

- Bir neçə gün əvvəl mühacirət illərindəki hərtərəfli fəaliyyətimizə işıq salan almanaxı vərəqlədim. Nəfis şəkildə çap olunmuş nəşrin giriş hissəsindəki məlumata nəzər saldım. Oradakı sənədlər, fotolar, icmallar 1985-ci ilə qədər olan dövrü əhatə edirdi. Mühacirlərimizin əmək fəaliyyətinə aid guşədə yazılmışdı:

-Üç nəfər Sosialist Əməyi Qəhrəmanı adına, 14-ü Lenin ordeninə, 58-i "Qırmızı Əmək Bayrağı", 5-i "Xalqlar dostluğu", 11-i "III dərəcəli Əmək Şöhrəti", 21-i "Şərəf" ordenlərinə, 26-sı "Əməkdə fərqlənməyə görə", 30-u "Əmək igidliyinə görə", 480-ı Lenin yubiley, 7992-si "Əmək veteranı" medallarına, 840 nəfəri "Sosializm yarışının qalibi", 854 nəfəri "Kommunist əməyi zərbəçisi", 133-ü Ümumittifaq Kənd Təsərrüfatı Sərgisinin döş nişanlarına layiq qörülüb.



۲۱ آذر حرکاتی ایله علاقه دار سیاسی مهاجرلر دوستلوق باغیندا ایمه جیلیکده
21 Azər Hərəkati ilə əlaqədar
mühacirlər Dostluq bağında iməcilikdə

Heç şübəsiz bu statistikaya mənim də adlarını sadalamağa ehtiyac duymadığım orden, medal və digər mükafatlarım daxil edilib. Mənim və çoxsaylı mühacir qardaşlarımın, bacılarımın zəhmətlərinin belə layiqincə qiymətləndirilməsində pənah gətirdiyimiz, yaşayıb işlədiyimiz ölkədə özünü qabarıq bürüzə verən amillərlə yanaşı rəhbərliyimizin, xüsusilə Qulam Yəhya Daneşaninin bu məsələni daim diqqət mərkəzində saxlamaları öz nəticəsini göstərib.

Bilirsiniz insan zəhmətinin, xidmətlərinin dəyərləndirilməsindən qürur duyur, nə üçün yaşadığının, çalışdığının məntiqi surətdə fərqində olur. Təşkilatlarımızın əksər tədbirlərində belələrinin adları çəkilib, başqalarına nümunə göstərilib. Mən də əməyimə verilən qiymətlərindən qürur hissi keçirmişəm.

1941-ci ildə Ərdəbilin Piləçay kəndində dünyaya gələn, 1952-ci ildə Bakı Dəmiryol Texnukumunu bitirdikdən sonra ömrümün 53 ilini bu sahənin inkişafına sərf edən bir insanın istər yaşıdlarına, cəmiyyət üzvlərinə, övladlarına, istərsə də gənc nəslə, nəvələrinə qürurla söyləməsi üçün kifayət qədər misallar vardır. Harada, hansı vəzifədə işləmişəmsə mənsub olduğum qurumların başını uca saxlamalarına xidməti başlıca məramım saymışam. Məhz buna görə də bu gün də vaxtı ilə işlədiyim Keşlə stansiyasında, rəisi olduğum Bakı texniki yükləmə, boşaltma distansiyasında, Baş İdarədə məni səmimiyyətlə qarşılayır, zənglər edir, tövsiyələrimi dinləyirlər. Mənalı ömür yolu isə təkcə sahibinə yox, onu tanıyanlara da başucalığı gətirir.

***Mirəziz Muradov,***
*İranlı Mühacirlər Cəmiyyətinin üzvü, dəmiryol veteranı*



# "Vətən yolu"ndan "Azərbaycan"adək



"Vətən yolunda" qəzetinin yığma sexində
130

**Onu deyə bilərəm ki, bizim göndərdiyimiz 2000-dən artıq nəşriyyə elə Qərbdə yayılıbdır.**

**Qulam Yəhya Daneşaninin nitqlərindən**

-Mən onu ilk dəfə görəndə 15 yaşındaydım. Yaşadığımız Təbriz qaynar qazana bənzəyirdi. İstərdim ki, bütün önəmli hadisələri izləməklə qalmayım, mübarizələrə qaynayıb-qarışım, fayda verim. Atamı erkən itirdiyimdən işləmək məcburiyyətində qalmışdım. Bir yeniyetmənin görə biləcəyi bütün işlərdə işlədim.

İran coğrafiyasının ən populyar fəaliyyət sahəsi ticarət idi. Anamla birlikdə Təbrizdə yaşayırdıq və bütün hadisələr gözümüz önündə baş verirdi. Azərbaycan Milli Hökuməti qurulmazdan xeyli əvvəl Təbrizdə "Vətən yolu" qəzeti çıxırdı. Uzun müddət bu nəşrin yayımı ilə məşğul olduğumdan yüzlərlə adamı sifətdən az da olsa tanıyırdım. Təbriz - Culfa yolu vasitəsilə "Vətən yolu" qəzetini yayırdıq. Mənim Seyid Cəfər Pişəvərini, Qulam Yəhya Daneşanini üzbəüz görməyim, çıxışlarını dinləməyim "21Azər"-dən sonra Təbriz Cavanlar Təşkilatına üzv olmağa sövq etdi.

Milli Hökümət vaxtı yadda qalan parlaq insanlar az deyildi. O zamanlar belə bir düşüncə mövcud idi ki, S.C. Pişəvəri xalqın düşünən beyni, danışan dilidirsə, Q.Yəhya vuran əlidir. Bu düşüncələr sonrakı həyatımda da öz təsirini göstərdi. Mühacirət illərində dünyasını dəyişən S.C. Pişəvəriyə görkəmli siyasi xadim, ADF-yə rəhbərlik edən Q.Y.Daneşaniyə sərkərdə kimi baxırdıq.

İş elə gətirdi ki, taleyimi əbədi bu təşkilatla bağladım.

Milli Hökümətin süqutundan sonra anam bakılı qızı olduğundan bizi İranın cənub məntəqəsinə sürgün etdilər. Sürgün və çətinliklərdən 1953-cü ildə yalnız Müsəddiq hakimiyyətə gəldikdən sonra qurtulduq. İlk fürsətdə Sovet Azərbaycanına gəldik. Şirvan şəhərində peşə məktəbində traktorçuluq peşəsinə yiyələndim. Bir müddət Şəmkirdə işlədim. Ailə qurub Bakıya qayıtdım.

Bir dəfə qonşum, tanınmış yazıçı Fəthi Xoşginabi dedi ki, şair Söhrab Tahirlə səni rəhbərimizə təqdim etmək istəyirik. Mətbəədə işçiyə ehtiyac var. Ertəsi gün məni Qulam Yəhyanın yanına apardılar. Beləliklə, 1952-ci ildən ta köhnə sistemli çap ömrünü başa vuranadək "Azərbaycan" ruznaməsinin nəşriyyatında çalışdım. Qəzetin redaksiyasında hər iki dostumla bərabər Cəfər Müciri, Qəvami, Sabir Əmirov və digər tanınmış imza sahibləri işləyirdi. Qulam Yəhya bütün bu insanlar üçün rəhbər idi. Rəhbərliyi isə siyasi baxışları ilə bərabər şəxsi həyat nümunəsindən qaynaqlanırdı.

Bu insan ömrünün sonuna qədər Azərbaycan Demokrat Firqəsi ideyasına sadiq qaldı. Ona Komunist də dedilər, Tudəçi də. Ancaq xatirələrimizdə milli demokrat düşüncəli rəhbər kimi yaşadı və sona qədər bu ideyaya xəyanət etmədi.

***Firidun Kazımi,***
*İranlı Mühacirlər Cəmiyyətinin üzvü, əmək veteranı*



## Ərk Qalası

Yenə düşdün yadıma sən,
Su çilədin oduma sən.
Özün söndür odumu sən,
Ərk Qalası
Bitmir intizarın sənin,
Öz yaramdır yaran sənin.
De, sağ qaldı haran sənin,
Ərk Qalası
Güllələrdən göz-göz oldun,
Bir dodaqda min söz oldun.
Mən sənsiz, sən mənsiz oldun,
Ərk Qalası
Dumanlar don biçdi sənə,
Zaman həsrət seçdi sənə.
Bu nə paydı düşdü sənə,
Ərk Qalası?!
Bəzən güldün çiçək-çiçək.
Şəfəqlərdən aldın min rəng.
Bəzən dindin kövrək-kövrək.
Ərk Qalası
Qala dinməz, sənsə dindin,
Eşidin, mən varam, dedin.
Ərk adlı nidaya döndün,
Ərk Qalası
Kaş ki, nağıl ola dərdin,
O dağ dərdin Qala dərdin.
Istəmərəm qala dərdin,
Ərk Qalası
Ləçəkləndi neçə nəğməm,
Körpə nəğməm, incə nəğməm.
Olaydın könlüncə nəğməm,
Ərk Qalası
Bu ayrılıq ötəridir,
Həsrəti vüsal əridir.
Könlüm ümid şəhəridir,
Ərk Qalası
Sən Təbrizin balasısan,
Sən zəfərlər çalasısan.
Sən əbədi qalasısan,
Ərk Qalası,
Ərk Qalası...

***Mədinə GÜLGÜN***